## 2017-ci il ərzində Naxçıvan Muxtar Respublikasının xarici ticarətinin vəziyyəti

Naxçıvan Muxtar Respublikasının 2017-ci il ərzində 63 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi **459888,8** min ABŞ dolları olmuşdur. Bu müddət ərzində **423320,0** min ABŞ dolları dəyərində mal ixrac, **36568,8** min ABŞ dolları dəyərində mal idxal olunmuş, idxal-ixrac əməliyyatları üzrə müsbət saldo **386751,2** min ABŞ dolları təşkil etmişdir. 2016-cı ilin yanvar-dekabr ayları ilə müqayisədə 2017-ci ilin yanvar-dekabr ayları ərzində ixrac əməliyyatlarının həcmi 1% (4199,2 min ABŞ dolları) artmış, idxal əməliyyatlarının həcmi isə 17,1% (7555,2 min ABŞ dolları) azalmışdır.



İxrac əməliyyatlarında xüsusi çəkisi böyük olan dövlətlərdən Türkiyə Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, İran İslam Respublikası, İraq, Rusiya Federasiyası, Gürcüstan Respublikası və digərlərinin adlarını çəkmək olar. Hesabat dövrü ərzində **423320,0** min ABŞ dolları dəyərində mal ixrac olunmuşdur ki, bunun **321841,6** min ABŞ dollarını, yəni ümumi ixracın 76%-ni sənaye məhsulları, **101478,4** min ABŞ dollarını, yəni ümumi ixracın 24%-ni isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir. Qeyd edək ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsullarının ixracı **0,6** %,kənd təsərrüfatı məhsullarının ixracı isə **2,4** % artmışdır.

İxrac əməliyyatlarında əsas yeri tutan əmtəələrin dəyəri aşağıdakı diaqramda öz əksini tapmışdır:




İdxalın strukturunda əsas yeri tutan əmtəələrin dəyəri aşağıdakı kimidir:

| | **Dəyər (min ABŞ dolları)** |
|---|---|
| 1. Nəqliyyat vasitələri və onların hissələri- | 15755,6 |
| 1. Digərləri- | 8961,6 |
| 2. Ərzaq məhsulları- | 6551,3 |
| 4. Sənaye məhsulları- | 3143,2 |
| 5. Tikinti materialları- | 2157,1 |

İdxal əməliyyatlarında əsas yeri tutan əmtəələrin dəyəri aşağıdakı diaqramda öz əksini tapmışdır:




İdxal əməliyyatlarının ölkələr üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:



Qeyd etmək lazımdır ki, hesabat dövründə idxal əməliyyatlarında dövlət sektorunun payı **20201,1** min ABŞ dolları, yəni ümumi idxalın 55%-ni, özəl sektorun payı isə **14334,7** min ABŞ dolları,yəni ümumi idxalın 39%-ni ,fiziki şəxslər isə **2033,0** min ABŞ dolları, yəni ümumi idxalın 6%-ni təşkil etmişdir.

İdxal əməliyyatlarının sektorlar üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:

